işləməyim vacibdir. Abuzər müəllim bir qədər fikirləşəndən sonra katibəni çağırıb dedi ki, Seymurun adlı təqaüd alması üçün sənədlərini hazırla. Mən bir aydan sonra Elmi Şuranın təsis etdiyi adlı təqaüdü (90 rublu) almağa başladım və işləməyə ehtiyac qalmadı.

Abuzər müəllim işlədiyi dövrlərdə fakültənin şərəfini yüksək tutub və onun nüfuzuna xələl gətirən hallara qarşı həmişə mübarizə aparıb. O, ayda bir-iki dəfə tələbələrimizin yaşadığı yataqxanalara gedərək onların sosial-məişət məsələləri ilə maraqlanırdı. Belə gedişlərin birində müəyyən olundu ki, qızların yaşadıqları yataqxananın dörd mərtəbəsində istirahət guşələri yaradılıb, bizim qızların yaşadıqları beşinci mərtəbədə isə yaradılmayıb. Fakültəyə qarşı bu cür münasibət Abuzər müəllimə çox pis təsir etdi və həmin günün səhərisi mənim yanımda universitetin təsərrüfat işləri üzrə prorektoruna zəng vuraraq təcili olaraq bizim qızların yaşadıqları yataqxananın beşinci mərtəbəsində istirahət guşəsi yaradılmasını çox sərt şəkildə tələb etdi. Məhz Abuzər müəllimin səyi nəticəsində üç günün içində bizim qızlar üçün gözəl bir istirahət otağı yaradıldı.

Abuzər müəllim öz millətinə, dilinə, dininə və adət-ənənəsinə bağlı insandır. Bu gözəl insanı sevdirən əsas cəhətlərdən biri də yaranmış problemləri ədalətlə həll etməsidir. Bütün bu cəhətləri özündə birləşdirənlər Allahın ən sevimli bəndələri sayılır. Abuzər müəllim islam dinin müqəddəs yerlərini də ziyarət edərək hacı, kərbəlayi, məşədi adlarını da aldı.

Abuzər mülləm bu gün də öz dəyərli məsləhətləri ilə gəncləri düzgün yola istiqamətləndirir, onların istər elm və təhsil, istərsə də şəxsi həyatlarında problemlərin həll olunmasına yaxından kömək edir. Bu gün onun yetirmələri Azərbaycanın müxtəlif dövlət strukturlarında çalışaraq dövltəçiliyimizin və müstəqilliyimizin qorunmasında yaxından iştirak edirlər.



**70 yaş!** Bəşər övladının müdrüklük çağı, ağsaqqallıq dövrü, kövrək dörün yaşantısı. İnsan müdrükləşə-müdrikləşə ağsaqqallaşır və ağsaqqallaşdıqca kövrəkləşir. Bu müdrikliklə, ağsaqqallıqla kövrəkləşə-kövrəkləşə 70 yaşına xoş gəldin, əziz müəllimim!